

Baş redaktor: Şəhla Qəmbərova
Korrektor: İlahə Quliyeva
Redaktor: Sevinc Nuruqızı
Bədii tərtibat: Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879, Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Qeydiyyat nömrəsi: № 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.
Təşkilati dəstək: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**web:** www.clb.az
**facebook:** fb.com/childlibazerbaijan
**twitter.com**/childlibaze
**instagram:** childlibazerbaijan
**youtube:** childlibazerbaijan

# Göy Qurşağı

**UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL**
**№ 4 (73) - 2020**



# QARLI ŞEİRLƏR

Qar yağır çiçək-çiçək,
Qar yağır qu tükü tək.
Qar sapa da bənzəyir,
Ağ saplar torpaqdakı
Kələ-kötür yerləri
Zərif-zərif gözəyir.

Elə kövrəkdir ki, qar
Tutsan əriyər, solar
Bu nədəndir, görəsən?
Bir ovuc alıb əgər
Sıxsan, buza çevrilər.

Bu nədəndir, görəsən?
Birinci qar əriyər...
İkinci qar əriyər...
Torpağı soyudunca
Əriyər onuncu da.
Qurban gedər buludlar
Ötər birinci dəstə,
İnad-inad yağan qar
Sonradan rahat-rahat
Enər torpağın üstə.

Küçə qarla döşəndi
Necə qəzərsən indi
Qarın şaxı sınmaya?
Ayaq altında çiçək
Yerisən əziləcək.
Təbiətin haqqı yox
İnsanları qınaya.
Axı, torpağın altda
Əzizlərimiz yatır,
İnciməz qar da bizdən.
Qar yağır yerə dən-dən,
Qar yağır yerə bir-bir,
Qar da insan üçündür.

Cilaladı külək qarı,
Sürüşdü bir zəif qarı,
Daş kimiydi qarın üstü.
Həmin yerdə bir uşaq da
Dəydi yerə, quş tək qalxdı,
Qu tüküydü qarın üstü.

Günəş yarıb buludu
Bir anlığa göründü,
Qar ağ nura boyandı,
Qar günəşə büründü...

Oğrun təbəssümüdür
Bunların bu görüşü!
Nə yaxşı ki, bu dünyada
Qar günəşlə görüşür.

Qara baxıb
Qara demək
Ağ yalandır.
Daha ağı
Qara görmək
Qaralandı.

Şeir labirint deyil
Hər döngədə çaşasan.
Məgər hökmdür, qara
Mübaliğə qoşasan?

Qar şeiri aydın gərək,
Qar şeiri təmiz gərək,
Şeiri şişirmək üçün
Qarı niyə şişirdək?

Dalanı süpürdülər...
Səkidəki qarı da
Qazıyıb kürüdülər
"Sürüşkəndi" dedilər.
Qorxuram ki, şeirimin
Bəzi misraları da
Silinə nahaq yerə
Həmin bəhanə ilə.

**Fikrət Sadıq**







# QIŞ LÖVHƏSİ

Yenə bəyaz geyib qış gecələri,
Ağ örpək altına çəkilib yollar.
Şaxtanın, çovğunun səxavətindən,
Sanki ilmə-ilmə toxunub kollar.

Cığıra iz düşüb, ləpir-ləpirdi,
Ləpirlər bulağı arxac eyləyib.
Şaxta suları da gömgöy kəsibdi,
Şaxta suları da ağac eyləyib.

Güzgülər çəkilib ayna sulara,
Sular naxış-naxış naxışlanıbdır.
Şəlalə asılıb hörüklərindən,
Elə yerindəcə donub qalıbdır.

Hardasa, bir güllə açılar hərdən,
Hardasa, dağlara səs düşər: Eheyy!
Hər tərəf buz geyib, buza bürünüb,
Yavaş keç, ayağın sürüşər, eheyy!

Ağ bəyaz kürkünü çiyninə salıb,
Ağaclar sakitcə dayanar, durar.
Burda şaxta rəssam xəyala dalıb,
Təbii molberti beləcə qurar.

**Yusif Hüseyn**



# SAQLANA

***Bu hekayənin qəhrəmanı bapbalaca bir qızdır. Adı da Saqlana. İndi yox, hekayəni oxuduqca, onun cəmi 4 yaşı olduğuna inanmaq istəməyəcəksən. Yəqin ki, onu hər gün ağlaya-ağlaya uşaq bağçasına gedən 4 yaşlı bacınla, pişikləri və itləri daşlayan qonşu oğlanla müqayisə edəcək və öz-özünə deyəcəksən:"Dörd yaşlı qızın belə qəhrəmanlıq edəcəyinə inanmıram". Amma sən inanmalısan. Əvvəlcə Saqlananın onun təxəyyülünün qəhrəmanı olmadığını söyləyən yazıçıya... Sonra da Saqlananın yazıçını heyrətə salan qəhrəmanlığına...***

Saqlana uzaq tayqada, qarlar və buzlar diyarında yaşayırdı. Gözünü dünyaya açandan hər tərəfi ağappaq görmüşdü. Nənəsinin və babasının ağ saçları kimi... Uzun qış gecələri nənəsinin nağılları ilə isinmişdi. Ayın aydınlığında işım-işım işıldayan qar yığınları arasında qaralan komalarında nənə-baba qayğısı və nəvazişilə dolu günlər keçirmişdi. Onların titrək və qırışlı əlləri Saqlananın başına sığal çəkmiş və dörd yaşlı qızcığaza yaxşılığın nə olduğunu anlatmışdı.

Valideynləri köçəri həyat yaşayırdılar. Tayqanın sərt şaxtasına və soyuğuna dözməyən mal-qaranı qışda nisbətən mülayim iqlimli ərazilərə köçürdür, aylarla balaca Saqlananı qoca nənə və babasının himayəsinə verirdilər.

Babanın gözləri görmürdü. O həmişə deyirdi ki, Saqlana babanın görən gözüdür. Dünya işığına dörd yaşlı nəvəsinin gözləri ilə baxan qoca, nəvəsini dizinin üstünə alar, ona ta qədimlərdən tayqada yaşayanların şücaətlərindən danışardı. Saqlananın verdiyi suallara həvəslə cavab verərdi. Nənə isə bir dəqiqə ayaq qatlamazdı. Sobanı odunla doldurar, həyətin qarını kürüyüb bir tərəfə yığar, maralları sağar, dadlı südlü sıyıq bişirərdi. Buğlanan sıyığın ətrinə nağıllardakı möcüzələr qarışanda gecələr daha işıqlı, daxma daha rahat olardı. Saqlana nənəsindən soruşardu:

– Nənə, bütün nənələr və babalar nəvələrinə nağıl danışırlar?

Nənəsi gözünü toxuduğu şaldan ayırıb onun gözlərinə baxar və deyərdi:

– Yox, qızım, əgər bütün nənələr və babalar nağıl danışsaydılar, dünyada müharibələr olmazdı... – Saqlana ha düşünər, tapa bilməzdi ki, nağıllarla müharibələrin nə əlaqəsi var. Qonur gözlərini nənəsinə zilləyərdi. Nənəsi o saat onun nə demək istədiyini anlayardı. – Qızım, nağıllarda xeyirxahlıq var. Hər eşitdiyin nağıldan canına hopan bir zərrə xeyirxahlıq, gələcəkdə çox böyük yaxşılıqlara yol açar. Mərhəmət nağıllarla başlayar, nağıllarda yaşayar, nağıllarla ötürülər...

Bütün bunları dinləyə-dinləyə Saqlana yuxuya gedər, yuxularında divlərə qalib gələn cəsur şahzadələr görərdi...

...Səhər yenicə açılmışdı. Axşamdan başlayan tufan qarı sovurub qalaq-qalaq təpələmişdi. Saqlana gözünü açıb, ətrafa baxdı. Daxma çox soyuq idi. Bayırda külək vıyıldayır, soyuqdan veyil-veyil gəzən qurd-quşun ulartısı küləyin səsinə qarışıb onu daha dəhşətli edirdi. Saqlana təəccüblə ətrafa göz gəzdirdi. Suallar bir-birinin ardınca onu narahat etməyə başladı: "Niyə daxma soyuqdur? Nə əcəb nənə sobanı qalamayıb? Niyə onun ayaq səsləri gəlmir? Və bir də niyə daxmanı ləzzətli sıyıq ətri bürümüyüb?"

Saqlana yerindən atıldı. Yalın ayaqlarını soyuq döşəməyə basa-basa nənənin çarpayısına tərəf qaçdı. Nənə çətin nəfəs alırdı. Saçları balışın üstünə səpələnmişdi. Baba onun əllərini ovuşdurur və astaca pıçıldayırdı:

– Dözümlü ol. Köməyə gələnimiz yoxdur... Başa düşürsən?! Heç gedib köməyə çağıranımız da...

Saqlana həyəcanlandı:

– Baba, mən gedərəm... Çobanlar yaşayan kəndi tanıyıram. Gör neçə dəfə getmişəm ora atamla?! Özümlə kibrit də götürərəm. Üşüyəndə tonqal qalayıb qızınaram. Qoy çobanların kəndindəki həkim gəlib nənəmi sağaltsın...

Saqlana üst-üstə iki gödəkcə geyinmişdi. Ona elə gəlirdi ki, onun papağı və əlcəkləri yer üzünün ən isti papağı və əlcəkləridir. Elə gödəkcəsi də. Kiminsə xizəyi qarın üstündə qoşa cığır açmışdı. Həyətlərində həmişə Saqlananın ovcundan dən yeyən iki sərçə onu müşayiət edirdilər... Başının üstü ilə uçur, hərdən cığıra qonur, dənlənirmiş kimi dimdikləri ilə qarın içinə girir və yenidən qanadlarını çırpıb havaya qalxırdılar... Saqlana tələsirdi. Qar yağıb bu qoşa cığırı örtməmiş o, çobanların kəndinə çatmalı, nənəsinin xəstələndiyini onlara deməliydi. Götürdüyü kibrit qutusunu islanmasın deyə, geyindiyi birinci gödəkcənin cibinə qoymuşdu. Külək üzünü bıçaq kimi kəsirdi. Tez-tez yıxılır, amma o saat da tələsik ayağa dururdu. Öz-özünə pıçıldayırdı:"Heç nədən qorxmuram. Ac qurdlar və ayılar köməyə tələsən balaca qızları yemirlər". Meşənin dərinliyindən səs gəlirdi:

– Uauuu... Uauuuuuuu... Uauuuuuuuu

Saqlana qorxudan büzüşür, nəfəsini içinə çəkib ətrafa göz gəzdirir və yenidən qaçırdı. Qar kirpiklərinə yığışır, ordan hoppanıb gözlərinə dolurdu. Yarım saatdan artıq idi ki, yol gedirdi. Amma hələ də heç bir insan məskəni gözə dəymirdi. Saqlana qorxmamaq üçün nəğmə oxuyurdu:

Qar gör necə yağır a...
Yerə, göyə, cığıra.
Saqlana nənəsinə
Gedir həkim çağıra...

Ay səni Saqlana... Nə gözəl mahnı düşünmüsən?! Heç bu nəğməni eşidən qurdlar səni parçalayarmı?! Yox. Niyə? Çünki nənəyə həkim çağırmağa gedirsən... Hə-kim... ça-ğır-ma-ğa... Həəəəə-kimmm.... hə...

– Eyyy... Kimsən ordaaaa....

Gənc çoban cığırda gördüyü qaraltının əvvəl canavar olduğunu zənn etdi... Qaraltı yıxılır, durur, yenə yıxılır və sürünürdü. Yenə də, yenə də... Çoban əlini yağan qarın qarşısına tutub, bir xeyli baxdı. Qaraltının nə olduğunu anlaya bilmədi. Sonra tüfəngini çiynindən aşırdıb əlinə aldı. Atəş açmağa hazır vəziyyətdə tutub, qaraltıya doğru getdi... Gözlərinə inanmadı. Dəhşətlə pıcıldadı:

– İşə bir bax... Balaca qızdır. Bu nə gəzir meşədə bu şaxtada? Eyyy... Köməyə gəlin...

O Saqlananı qucağına götürdü. Nəfəsi ilə isitməyə çalışdı. Saqlana üzünə dəyən hərarətdən gözlərini açdı... Qarma-qarışıq və nizamsız cümlələrlə nə isə deməyə çalışdı... Çoban onun dediklərindən yalnız bircə sozü başa düşürdü:"Nənəm..."

...Sabahı gün bütün qəzetlərin manşetini bir xəbər bəzəyirdi:"İnanılmaz qəhrəmanlıq. Tuvada yaşayan Saqlana Salçaq adlı dörd yaşlı qız xəstə nənəsinə kömək çağırmaq üçün qarlı-şaxtalı tayqa ilə -34 dərəcə temperaturda səkkiz kilometr yol qət edib..."

**Sevinc Nuruqızı**

# Tundra maralçıları və onların -50 dərəcə şaxtada yaşamaq uğrunda mübarizəsi

Onlar tundrada məskunlaşanda hələ o yerlərdə neft olmasından xəbərsiz idilər. Həyata necə başladılarsa, qarlar və buzlar arasında elə də yaşadılar. Onlar öz maralları və qoruyub saxladıqları adət-ənənələri ilə əbədi qarlar arasında köçəri həyatlarını bu gün də davam etdirirlər. Qışda sümüyə işləyən -50 dərəcə şaxta, yayda ağcaqanad və bataqlıqlar. Şimal aborigenləri bu həyatı sevir və məmnundurlar.







### TUNDRADA HƏYAT

Onlar çumlarda yaşayır. Çum - ən uzağı, yarım saata qurulan evdir. Bu ev həftədə iki-üç dəfə sökülür və qurulur.

Çum konus şəklində yığılmış və üzərinə maral dərisi çəkilmiş taxta payalardan qurulur. Maraqlısı odur ki, şimalda çum qurmaq və yığmaq qadın işidir. Maralçılar isə bir yerdə iki həftədən artıq qalmır. Çünki bu müddət ərzində marallar bu ərazidəki bütün mamırı yeyib bitirir.

### ÇUM

Bir çumda 5-10 nəfər yaşaya bilər. Çumun öz qanunları var. Məsələn, kişilər yaşayan hissəyə qadınlar daxil ola bilməz. Çumu saxlayan payalara söykənmək, qadınlara çumun arxasına keçmək olmaz. Çumun tən ortasında ocaq yeri var. İçəridəki hərarət 15-20 dərəcədən aşağı enməməlidir. Bu hərarət həm yaşamaq, həm də ki, çumun içində asılmış maral və balıq ətlərini qaxac etmək üçün yetərlidir. Bu işə çumun ortasındakı ocağın tüstüsü də öz köməyini göstərir. Yayda döşəmə samandan və yaxud qamışdan hörülmüş həsir, qışda ilə maral dəriləri ilə döşənir. Çum yağ çırağı ilə işıqlandırılır. Bu, həm də istilik verir. Maralçılar maral dəriləri üzərində yatır, səhər isə dərilər çumun bir küncündə yığılır. Çumda heç bir mebel yoxdur.













### TUNDRADA GİGİYENA

Çumda nə duş var, nə hamam, nə də ayaqyolu. Yayda göllərdə çimirlər, qışda gec-gec də olsa, çumda. Təmizlik üçün onlar ocağın kənarında oturur, dərilərinə maral və yaxud suiti yağı çəkir və yağ əriyib dəridəki çirkə qarışandan sonra onu xüsusi sümük alətlə qaşıyıb çıxardırlar.

### MARAL - ONLARIN EVİDİR

Həmişə olduğu kimi indi də tundrada maralçı öz maral sürüsünün sayı ilə dövlətli hesab olunur. Məsələn, iki-üç min maralı olan sahibkar milyonçudur. 500 baş maralı olan kasıb təbəqəyə aid edilir.

Tundrada maral həm qidadır, həm nəqliyyat, həm geyim, həm yorğan-döşək, həm döşənəcək, həm də ev örtüyüdür. Bir sözlə, maral maralçının evidir.

### KÖÇƏRİLƏRİN NAVİQASİYA MƏHARƏTİ

Onların fantastik naviqasiya bacarığı var. Təsəvvür edin, üfüqə dirənənə qədər ağappaq qar. Yol yox, iz yox... Köçərilər üçün isə tundra böyük bir yataqxanadır. Onlar hər yeri öz evləri qədər yaxşı tanıyır. Onlar yolu azmaz, getdikləri yeri əli ilə qoymuş kimi tapar, tundranın bu başından o başına gözüyumulu gedib çıxarlar.

### YENƏ DƏ MARAL

Toylarında mütləq maral kəsərlər... Onlar çiy ət yeməyi sevir. Çiy ət yeyir və kəsilmiş heyvanın ılıq qanını içirlər... Gələn qonağı təzə kəsilmiş maralın çiy böyrəyinə qonaq edirlər.

### XƏSTƏLİKLƏRDƏN NECƏ QORUNURLAR

Ailə üzvləri xəstələnəndə həkimə getmirlər. Çünki xəstəxana və ya poliklinika 100-150 kilometrlikdədir. Onlar qaynar çay içir, dərman bitkilərindən dəmləmələr qəbul edirlər. İrinləmiş yaranı maralın və yaxud morjun quyruq yağından yaxma və kompreslərlə, çapıq və yaraları dələ və dovşan dərilərinə bükməklə, stomatitləri ayı ödü ilə, qulaq ağrısını ağacdələn qanı ilə sağaldırlar. Baş ağrılarında baş dərisini qızarana qədər çimdikləyir və yaxud mis pulla qanı çıxanadək sürtürlər. Onlarda bütün xəstəliklərdən ən etibarlı üsul qanalmadır.

# Дед Мороз и его маленькая помощница

В последнюю ночь года Сонечке совсем не спалось. Дело в том, что, по традиции, в эту ночь к ним приходил Дед Мороз и оставлял подарки под ёлкой. Сонечке всегда хотелось хоть одним глазком посмотреть на Дедушку Мороза, но ей никогда не удавалось этого сделать. Она всегда засыпала до его прихода. Но в эту ночь Сонечка твёрдо решила дождаться. Она, как всегда, приготовила для Дедушки Мороза печенье, которое положила в тарелочку и поставила на камин. Девочка знала, что Дед Мороз попадал к ним в дом через дымоход. В некоторые дома он проникал через окно, но поскольку у них был камин, она считала, что это самый удобный способ.

И вот она ждала. Все в доме уже заснули, а она сидела на кровати и специально не ложилась. Часы пробили полночь, потом час ночи, и наконец, из гостиной послышался негромкий шум. Сонечка вскочила с кровати и что есть мочи побежала туда. И там она увидела его, Деда Мороза. Он сидел около камина и жевал печенье.

— Дедушка Мороз, Дедушка Мороз, это ты! Я знала, что ты придёшь! Я так ждала тебя! – восторженно закричала девочка.

— Здравствуй, Сонечка, — произнёс он, правда, почему-то Дедушка выглядел очень усталым и чем-то расстроенным.

— Что случилось, почему ты такой грустный? – спросила Сонечка.

— Ох-ох-ох, проблема у меня возникла в этом году. Дело в том, что Снегурочка, помощница моя, готовит ёлку для лесных зверят, и помогать мне вызвался один гном. Нужен мне помощник, чтобы подарки развозить, один я не справляюсь. Так вот, сани мои как-то кренились на бок, когда мы отправились в путь. Мы остановились. Мой гном пошёл проверять, как запряжены олени, случайно поскользнулся на льду и упал. Да так упал, что очень сильно ушиб ногу. Так больно ему было! Пришлось отправить его домой на одном из оленей. Куда ему бедному?! Вот не знаю теперь, управлюсь ли, итак провозился с санями.

— Вот если бы я могла тебе чем-то помочь! – сказала девочка.

— Хм, — произнёс Дед Мороз и посмотрел на неё, — а это знаешь ли, хорошая идея.

— Правда?! А что мне надо будет делать? – восторженно спросила Сонечка.

— Одевайся теплей, скоро узнаешь, — ответил Дедушка.

Сонечка надела на себя тёплые штаны и свитер, куртку, ботинки, перчатки и шапочку. Так быстро она никогда не собиралась!

— А как мы выйдем? Через камин? – спросила она.

— Ну, что я тебе, Санта Клаус какой-нибудь, чтобы через камин прыгать? Я через окно предпочитаю. Так безопасней, да и слова я волшебные знаю, что окна открывают, — улыбнулся Дед Мороз.

Он взял девочку за руку, и они шагнули в открытое окно. Перед окном в воздухе парили сани, запряжённые оленями. На санях был огромный мешок с подарками.

— Теперь слушай, — произнёс Дедушка. – Видишь, там, на верху мешка лежит список и чернильное перо?

— Да, нашла, — ответила девочка.

— Там в списке, написано имя каждого ребёнка, адрес и подарок, который он попросил. Так вот, ты будешь говорить мне, куда ехать, а потом искать в мешке нужный подарок. Кто там у нас первый?

— Мальчик Вася, — прочитала девочка, потом она назвала адрес и стала искать в мешке подарок.

Чудесным образом оказалось, что машинка, которую Вася попросил в подарок, лежала на самом верху мешка. И так было со всеми подарками, и для Танечки, и для Андрюши, и для Данилки, и для всех-всех остальных. Видимо, мешок был волшебным. Оказалось, что в нём, к тому же, гораздо больше подарков, чем казалось на первый взгляд.

Как удивительно было мчаться в санях Деда Мороз по звёздному небу, над крышами домов, в которых спали дети. Все эти дети надеялись утром под ёлкой увидеть долгожданный подарок от Деда Мороза. Сонечке была радостно, что именно она помогала Дедушке осуществить мечты этих ребят.

Ночь близилась к завершению, да и список тоже. В мешке оставалось всего несколько подарков. И вот уже и они были развезены по нужным адресам. Сани быстро пронеслись по небу и остановились перед Сонечкиными окнами.

— Спасибо тебе, помощница моя, — поблагодарил Дед Мороз девочку. – Не успел бы я без тебя никак. От всего сердца благодарю! И за печенье спасибо. Сама стряпала?

— Да, вместе с мамой, — ответила девочка.

— Ты мне рецепт напиши и под ёлочкой оставь. Пришлю кого-нибудь за ним. Пусть Снегурочка научится такие печенья печь, — попросил Дед Мороз.

— Обязательно напишу, — пообещала Сонечка.

— Да вот, возьми подарок от меня. Колечко. Не простое, волшебное. Летом оно золотое, как солнышко, а зимой серебряное, как снежинки, — сказал он и протянул девочке тоненькое колечко, всё в узорах снежных. Видимо сам Мороз-художник расписывал.

Дедушка помог девочке зайти в дом и умчался вдаль на своих санях. Она так хотела спать, что уснула, едва её голова коснулась подушки. На удивление родителей Сонечка необычно долго спала в то утро. А ведь обычно она первая просыпалась и бежала за подарками. Откуда им было знать, что их дочка всю ночь сама помогала Деду Морозу развозить подарки для других ребят. Зато, когда Сонечка проснулась, она нашла под ёлкой именно тот подарок, о котором она просила Дедушку в письме, большую куклу в красивом бальном платье. Девочка радостно улыбалась и поглядывала на тоненькое колечко у себя на пальчике.

**Мария Шкурина**



# Qara fraklı quş



**Yəqin ki, bu qəribə yerişli, "qara fraklı, ağ smokinqli" canlıları - pinqvinləri çox sevirsən. Onlar haqqında oxumaq ustəyəndə mütləq "Göy qurşağı"nı vərəqlə. Sənə pinqvinlərin həyatından ətraflı məlumat verəcəyimizə əminik...**



Bu qəribə quşlar Cənub qütbü, Yeni Zelandiya, Avstraliya, Cənubi Amerika, Cənubi Afrika və hətta Qalapaqos sahillərində yaşayır. Pinqvinin 17-yə qədər növü var. Ən böyükölçülü pinqvin İmperator pinqvinləridir. Onlar, təxminən 45 kq ağırlıqda olur.

Balıq və mürəkkəbböcəyi ilə qidalanarlar.Kürəkləri qara və ya boz, qarın hissələri ağ nazik tüklərlə örtülüdür. Quyruqları qısa və ayaqları bədənlərinin arxasında olduğundan asanlıqla ayaq üstə dayana bilirlər. Dənizdə saatda 10 dəniz mili sürətlə üzən pinqvinlər hətta lazım olduğunda sürətlərini iki qat artıra bilirlər.



2021



## QUŞDUR, AMMA UÇMUR

Uçmurlar... Çünki...

Qanadlarında uzun tüklər yoxdur, ona görə də uça bilmirlər. Amma buz üzərində çox yaxşı hərəkət edirlər. Sinələrinin üzərində yataraq üzgəc qanadlarının köməyiylə xizək kimi sürüşərək, quruda bir neçə yüz kilometr məsafə qət edirlər.

## NƏ ƏCƏB DONMURLAR?!



Bədənlərini örtən sıx tüklər və dəri altındakı qalın yağ təbəqəsi onları Antarktikanın dondurucu soyuqlarından qoruyur. Bədən istiliyini nizamlayan avtomatik bir mexanizmə sahibdirlər. Lazım olduğunda qan damarları ilə dəriyə gedən qanı azaldıb-yüksəldir və tüklərini qabardıb bədən istiliyini tənzimləyirlər.

Cənub qütbü pinqvinləri 40 °C-lik bədən istiliyi ilə -40 °C-lik Antarktika soyuğuna uyğunlaşa bilir. Bədənlərindəki tük, yağ və qidalardan əldə etdikləri enerji və idarə mexanizmi ilə 80 °C-lik istilik fərqinə dözə bilirlər.

Antarktikanın kral pinqvinləri gündə ortalama 140 dəfə suya baş vurur. Amma cəmi 10 dəfəsində ov tuta bilirlər, qalan səfərləri müvəffəqiyyətsiz olur. Tük dibləri dəriyə yaxın qisimdə istiliyi qoruyub saxlayan bir iç təbəqə meydana gətirir və bədəni soyuqdan qoruyur.



## QEYRİ-ADİ DAŞ HƏDİYYƏSİ

Bu daş nə zümrüddür, nə də almaz. Bu adi daşdır... Pinqvinlər yuvanı daşlardan qurur. Daşları dişi pinqvinə erkək pinqvin hədiyyə edir.

Qar əridikcə dişilər onlara hədiyyə edilmiş daşlarla yuvanı yüksəldir. Yuva quran pinqvinlər 2 – 3 yumurta qoyur. İmperator və kral pinqvin isə yuva qurmur, bir yumurta yumurtlayır və tək yumurtalarını ayaqları üzərində və qarınlarının altındakı dərinin altında soyuqdan qoruyur. Erkək və dişi növbə ilə kürt yatır. Balaların qayğısına ana və ataları birlikdə qalır.

Pinqvinlər insandan qaçmadıqları üçün, yağlarından istifadə etmək istəyənlər onları asanlıqla ovlayır.

## ANA OLMAĞA HAZIRLAŞAN PİNQVİNLƏR

Bəzi pinqvinlər kürt olduğu dövrdə dörd aya yaxın ac qala bilir. Bu dövrdə çəkilərinin yarısını itirirlər.

Artım dövrlərində bir qismi yan-yana dayanaraq yüz minlərlə fərddən ibarət kürt koloniyaları yaradır.

## PİNQVİNÇEVİRƏN

Pinqvinlər yaşayan ərazilərdə qəribə bir sənət növü var - pinqvinçevirən. Bu sənətlə məşğul olan insan sahilboyu kirşədə irəliləyir, yerə yıxılıb çabalayan pinqvinləri çevirir. Vəssalam... Onun işi bundan ibarətdir... Amma o çox mühüm işin sahibidir. Çünki arxası qatda yıxılan pinqvinin çevrilmək bacarığı yoxdur. O günlərlə belə qalar və sonda ölə bilər...



# DƏRSƏ GEDƏN BİR UŞAQ ÇIXDI BUZ ÜSTƏ QOÇAQ...

Əgər dərsə gedəndə, buz üstə çıxsan... Və buz qırılsa, düşsən suya...

Bax, bundan qorunmaq üçün yoxlamadığın yerdə buzun üstünə çıxma. Amma əgər buz tələsinə düşsən, o zaman dediklərimi unutma!

Çalış panikaya düşməyəsən. Mümkun olduğu qədər başını suyun üstündə saxla, mütləq köməyə adam çağır.



- Qorxma. Hətta suyun dərinliyinə düşsən belə, su səni geri itələyəcək.
- Başını azca dala at, bu halda suyun üzərində qalmaq asan olacaq.
- Çox əl-qol atma. Yorularsan. Sadəcə, suyun altında ayaqlarını velosiped sürürmüş kimi hərəkət elətdir.
- Asta və dərindən nəfəs al.
- Köməyə çağırmaqda davam et.



**Gəldiyin tərəfə dönməyə çalış, çünki buz orada nisbətən qalındır.**

- Əgər çantan və palton ağırlıq edib səni dibə çəkirsə, onlardan azad ol. Amma paltarların çox ağırdısa soyunmağa vaxt itirmə.
- Yıxıldığın tərəfə çatmağa çalış. Orada buz daha qalındır. Buza çat, əllərini onun üstünə qoy. Buzun üstünə sinənlə çıxmağa çalış və özünü sudan kənara itələ.
- Əllərinlə buzdan tut, sinəni onun üstünə qoy, ayaqlarınla və bədəninlə irəli tullan və bədəninə şaquli istiqamət ver.
- Başqa bir yol da var. Arxasıüstə çevril. Başını buzun üstünə qoy, əllərini geniş aç, ayaqlarınla suyu irəli itələ, özünü buzun səthinə doğru çək.









- Buzun səthinə çıxan kimi ayaq üstə dayanmağa tələsmə. Buz yenidən çevrilə və sən suya düşə bilərsən.

**Düşdüyün yerdən maksimum uzaqlaşmağa çalış. Sahilə gəldiyin yolla qayıt.**



- Sahilə çıxanda çox ləngimə. Dona bilərsən. Qaçaraq yaxınlıqdakı nisbətən isti yaşayış yerinə çatmağa çalış.
- Yaş paltarları tez dəyiş və qızınmağa başla.
- Yorğana bürün, isti çay iç.
- İsti vanna qəbul etmə, şoka düşə bilərsən. Hətta ürəyin də dayana bilər. Tədricən isinmək lazımdır.
- Əgər yaxınlıqda isti yaşayış yeri yoxdursa, o zaman paltarlarının suyunu sıx. Şaxtada yaş paltarla qalmaq, paltarsız qalmaq qədər təhlükəlidir.
- Tez bir zamanda həkimə müraciət et. Hətta heç bir yerin ağrımasa belə.





# BUZ DAĞLARI
## aysberqlər

Dağ var dünya durduqca durar, dağ var, gün dəyəndə əriyər... Dağ var sancıldığı yerdən qopmaz. Tufanlara, küləklərə sinə gərər, dayanar... Dağ var, gecə-gündüz yol gedər... Dağ var, daşdan-qayadan yoğrular, dağ var sadəcə buzdan... Dağ var, parçalananda yerində daş qalar, dağ var – su... Bax elə o əriyən, yeriyən, suya dönən dağlardan danışacam sənə. Buz dağlarından – aysberqlərdən...

### AYSBERQ NECƏ YARANIR

Aysberq buzlaqlardan qopan böyük buz parçasıdır. Aysberqlər masaşəkilli, günbəzşəkilli, piramidaşəkilli olur. Düz səthi olan masaşəkilli aysberqlər pinqvinlərin ən sevimli məkanıdır. Onlar bu aysberqdə həm yaşayır, həm də səyahət edir. Necə?! Əməlli-başlı səyahət. Axı aysberqlər su üzərində daimi hərəkətdədir.

### AYSBERQDƏ SƏYAHƏT

Bu buz nəhəngləri çox böyük məsafə qət edir. Məsələn, Arktikadakı aysberqlər uzun bir yol gedib Bermud adalarına çıxa bilir. Bu 4000 km məsafə deməkdir. Antarktika aysberqlərinə isə Rio-de-Janeyroda rast gəlsən, təəccüblənmə... Cəmi 5000 km məsafə qət ediblər, vəssalam!

### ÜZƏN BUZDAĞI VƏ GƏMİLƏR...

"Titanik" sərnişin gəmisinin taleyi sənə məlumdur, yəqin ki... İstəyirsən, xatırladım?! Bu gəmi 1912-ci il, aprelin 14-də nəhəng aysberqlə toqquşub və batıb. Bəlkə də elə bu hadisədən sonra Buz polisi yaradılıb. Buz polisi yaranan gündən aysberqlə toqquşmadan bir nəfər olsa da dünyasını dəyişməyib. Çünki Buz polisi aysberqlərin hərəkətinə nəzarət edir və gəmilərə bütün məlumatları çatdırır. Bundan əlavə, Aysberq qoşqusu da fəaliyyət göstərir. Bu qoşqu aysberqlərin hərəkətini nizamlayır, onları arzuolunmaz istiqamətdən bir neçə dərəcə kənarlaşdırır.







### ƏN BÖYÜK AYSBERQ

2000-ci ildə Rossa buzlağından tarixin ən böyük aysberqi qopdu... Böyük deyəndə ki... Uzunluğu 295 km, eni 37 km... Təsəvvür edilməsi belə çox təəccüblü...

### AYSBERQİN RƏNGİ

Gənc aysberqlər ağ rəngdə olur. Çünki onlar buzdan və hava qabarcıqlarından ibarətdir.

Buzlaq hərəkət etdikdə səthində çatlar yaranır. Bu çatlara su dolur və qardan fərqli olaraq, qabarcıqlar əmələ gəlmir və su donur. Bu halda aysberqdə mavi damarlar əmələ gəlir. Beləcə, zolaqlı aysberq yaranır. Zolaqlı aysberqlər tez əriyir, davamlı olmur.

"Qara" aysberqlər də olur. Bu rəng vulkanik tozun və yığıntıların təsirindən yaranır. Qara aysberq təhlükəlidir. Çünki suda yaxşı görünmür. Hətta belə bir fərziyyə var ki, "Titanik" məhz qara aysberqlə toqquşub.

### AYSBERQLƏR SU EHTİYATI KİMİ

Aysberq içməli su ehtiyatıdır. Çünki onda dəhşətli dərəcədə çox su kütləsi var.













# CİQOKUDANİ

## Yaponiyada qar meymunları parkı













2021



Qar meymunları parkı (Jigokudani Yaen-koen, Jigokudani Monkey Park) – Yaponiyanın Xonsyu adasındakı Yokoyu çayı vadisində, 850 metr hündürlükdə, dağlarda yerləşir. Burada qeyri-adi qar meymunları – yapon makakiləri yaşayır. **Qədim insanlar bu yeri Cəhənnəm Vadisi (Ciqokudani) adlandırıblar.** Çünki burada sərt sıldırımlar arasında yerdən qalxan su şınaqları və buxar dolaşır. İlin yarısı buralar qarla örtülü olur. Qar içində qaynayan isti su hövzələrində 200-dən artıq ağ-qəhvəyi qar topasına bənzər meymun qaçışır. Onlar isti sularda ləzzətlə çimir, oynayır və bu parkın seyrçilərinə həzz dolu anlar bəxş edirlər.

Yerli sakinlər danışır ki, ilk dəfə isti vanna qəbulu bir dişi qar meymununun ağlına gəlib. **Suda maraqlı qida görən meymun qaynar suya atılıb və oradan çıxmaq istəməyib.** Buxar qalxan yerə həyəcanla baxan digər meymunlar da onun kimi ləzzətlə çimmək istəyib və bir-birinin ardınca suya atılıblar. Və beləliklə, Yaponiya üçün böyük əhəmiyyət kəsb edən tematik parkın əsası qoyulub.

**Yapon makakiləri şimal meymunları növündəndirlər. Onlar -15 dərəcə temperaturda yaşaya bilir. Yaşadıqları bu ərazidə isə hərarət -5 dərəcə olur.** Amma bu soyuğa meymunlar isti su hövzələrinin hesabına davam gətirir. Suda həzz dəqiqələri bütün günü davam edir. Sudan yem dalınca çıxmaq dözülməz soyuqla üz-üzə qalmaq deməkdir. Meymunların yaş xəzləri buz dənəcikləri ilə örtülür və onlar özlərini pis hiss edir. Amma təbiət onlara elə bir instinkt bəxş edib ki... Suda olan qar meymunları kənardakılarla növbələşir. Kənardakılar sudakılara yem daşıyır. Sabahı gün isə yem daşımaq növbəsi dünən suda olanlarınkıdır. Necə deyərlər, yaşamağın yolunu tapıb qar meymunları.

Yayda və yazda isə onlar dağlara qalxır, ağacların ləzzətli meyvələri ilə qidalanırlar. Qar yağıb dağları





örtən kimi yadlarına isti spa düşür. Enirlər aşağı. Və olurlar turistlərin maraq dairəsində. **Qaynar təbiət basseynlərində çimən qar meymunları turislərin bir addımlığında olur. Onları heç bir hasar və yaxud arakəsmə ilə insanlardan ayırmırlar.** Turistlər sərbəst şəkildə meymunları yemləyir, şəkillərini çəkir... Amma park ərazisində qar meymunlarına əl vurmaq, səs salıb onları həyəcanlandırmaq qəti qadağandır.

**Axşam düşəndə meymunlar isti vannaları tərk edir. Yan-yana oturub bir xeyli bir-birinin xəzini “bitləyir”lər. El arasında bu hərəkətə “bitləmək” deyilir.** Yəni ki, tüklərin arasında dolaşan həşəratları təmizləmək mənasında. Əslində isə qar meymunlarının bu hərəkəti onların bir-birinə nəvaziş göstəricisidir... Nəvaziş göstərməyib, nə etsinlər?! Axı cəmi 200 qar meymunu qalıb. Nəsilləri get-gedə kəsilir. Bax, ona görə də mehriban olmaqdan başqa əlacları yoxdur.

2021

# SNOW FRIENDS




**By M. Christina Butler**



Little Bear woke early from his deep winter sleep to find that the world was covered with a thick white blanket.

"Oooh!" he cried, "snow!" And he raced out to play.

Little Bear rolled and skidded down the hill. He shook, the branches to make tiny white snow storms.

Then he looked around for someone to play with, but he couldn't see anyone... anywhere. Little Bear was all alone.

Suddenly he had an idea. "I could build a snowman," he thought, "and then I would have someone to play with."

So little Bear rolled a big shiny snowman body!

"Hello!" cried Otter, racing up. "What are you doing?" "I'm making the best snowman EVER!" replied little Bear.

" Wow!" said Otter. "I'll help you!"

Little Bear and Otter pushed and puffed as the snowball got bigger and bigger.

Suddenly a rabbit popped up from his burrow.

"What's that?" he said curiously.

"We're building the best snowman EVER!" said Otter. "Do you want to help?"

So Rabbit helped to make the snowman's head, and gave him a big happy smile.

They used sticks from the river for arms and one of Rabbit's carrots for a nose. At last the BEST SNOWMAN EVER was finished!

For the rest of the day they played with the snowman in the snow. They played hide and seek and chase, and had huge snowball fights that left them giggling and gasping for breath.

As the sun set, the three friend's talked about what games they could play the next day.

"Let's go exploring," said Rabbit.

"But we can't leave Snowman all on his own," said little Bear.

"Let's build him a friend, then!" said Otter. Once again they rolled and patted and shaped, until they made a perfect little snowman.

Tired and happy they watched as the snowman and his friend turned to silver in the moonlight.

"He's the BESTEST SNOWMAN IN THE WORLD," said little Bear.

"And he'll never be lonely now he has a friend," said Otter.

"Yes," Rabbit smiled. "Just like us!"

When little Bear wakes early from his winter sleep he has the most wonderful surprise – SNOW!

Little Bear tumbles and skids and stomps and dances. But he soon finds that even snow is no fun without a friend to share it. So he decides to build a snowman...





# Küknar, küknar, ey mehriban küknar...



Çox sevimli mahnımızın sözlərini dəyişib, mövzumuza uyğunlaşdırdıq… Sənin küknarın nə boydadır? Nə vaxt bəzədin? Kiminlə bəzədin? Və nəhayət, oyuncaqları haradan aldın? Bu suallar bir-birinizə verdiyiniz suallardır. Bəs küknardan asdığın oyuncaqların tarixi haqqında nə bilirsən... Yəqin ki, bəzi bildiklərin var. Mən də sənə öz məlumatlarımı çatdırım...



Yeni il oyuncaqlarının olduqca maraqlı yaranma tarixi var. Dünyada ilk dəfə orta əsrlərin sonunda Avropa sakinləri Yeni il üçün evlərini bəzəməyə başlayıblar. Dəfələrlə qoyulan qadağalara baxmayaraq, insanlar bu bayramda meşədən evə həmişəyaşıl küknar budaqları gətirirdilər. Küknar bəzəmək ənənəsi XVI əsrin birinci yarısından yaranıb. Və dəb halı alıb.

Həmin dövrlərdən bu yana küknar ağacları rəngli çilçıraqlar, zərlər, oyuncaqlar, ulduzlarla bəzədilib. Deməklazımdır ki, XVIII əsrin ortalarına kimi küknar ağacının üzərindəki bəzək əşyaları yeməli idi. Yəni konfetlərdən, şokoladlardan, hətta vaflilərdən, kekslərdən, qozlardan, meyvələrdən bəzək kimi istifadə olunurdu. Məncə, maraqlı olub bu oyuncaqlar... Yeməli...

XVIII əsrin ikinci yarısından küknar ağacı bəzəkləri daha gözəl olmağa başladı: kağız güllər, zərli küknar qozaları və içi boş yumurta, latun formasında kəsilmiş fiqurlar, sehirli pərilər və mələklər və s.

1848-ci ildə isə Lauş şəhərciyində ilk dəfə olaraq küknar şarları hazırlandı. Bu şarlar rəngli və şəffaf şüşədən düzəldilirdi. İçərisi qalın qurğuşunla doldurulur, üzəri parlaq parçalarla örtülürdü. Amma küknarın budaqları ağırlıqdan əyilir, estetik görünüşü pozulurdu. Lakin texnologiyalar inkişaf etdi. Tezliklə qalın şüşələr çox nazik şüşə kürəciklərlə əvəz edildi... Əvvəllər oyuncaqların çoxunu qara örtüklü gümüş nitrat ilə hazırlanırdı, indi isə oyuncaqlar gümüş və qızıl tozuyla örtülür.

Papye-maşe üsulu ilə də maraqlı oyuncaqlar hazırlamaq hər zaman dəbdə olub. Bu üsulun əsasında kağız dayanırdı. Kağız yapışqanla qarışdırılıb istənilən şəklə salınır və əldə edilmiş oyuncaq boyalarla rənglənir. Beləcə, həm yüngül, həm nisbətən ucuz oyuncaq əldə edilir.

Karton oyuncaqlar da uzun illər küknar ağaclarımızın bəzəyi olub.

# KİRPİ DUMANDA

**Sergey Kozlov**

## Bala kirpi ilə Ayı balası Dovşanın yuxusuna necə girdilər

İlk qarın üstü ilə Dovşan ilk dəfə Ayı balasıgilə getdi.

– Ayı balası, sən tanıdıqlarımın ən yaxşısısan. – Dovşan dedi.

– Bəs Bala kirpi?

– O da yaxşıdır. Amma sən – hamıdan yaxşısan!

– Dovşan, sənə nə olub? Otur, bir az dincəl. Niyə hoppanırsan?

– Bu gün yuxudan durdum və anladım ki, – Dovşan dedi, – dünyada səndən yaxşısı yoxdur.

Bala kirpi gəldi.

– Salam, Ayı balası! – dedi. – Salam, Dovşan! Niyə evdə oturmusunuz? Bayırda qar yağıb e...

– Hazırlaşırdım sizə gələm. – Ayı balası dedi. – Bir də gördüm o gəlir və deyir ki, mən hamıdan yaxşıyam.

– Düz deyir, – Bala kirpi dedi. – Sən bilmirdin ki?

– Düz deyirəm, o, dünyada ən yaxşıdır. – Dovşan dedi.

– Əlbəttə! – Bala kirpi gülümsündü və masanın arxasına keçdi. – Gəlin çay içək.

Onlar çay içməyə başladılar.

– Qulaq asın... Görün nə yuxu görmüşəm. – Dovşan dedi. – Yuxuda görürəm ki, meşədə tək-tənha qalmışam. Ətrafda heç kim yoxdur – nə quşlar, nə dələlər, nə dovşanlar. Heç kim... “ İndi mən tək-tənha nə edəcəm?”, – deyə yuxuda düşünürəm və meşənin içi ilə gedirəm.

Meşə isə ağappaq qar içindədir. Üç dəfə meşəni o baş, bu başa gedirəm. Heç kim yoxdur. Təsəvvür edirsiniz?

– Qorxuludur, – Bala kirpi dedi.

– Aha, – Ayı balası razılaşdı.



– Qarın üstündə bir dənə də olsun ləpir belə yoxdur. – Dovşan deyir. – Göyün üzü isə ağappaq pambıqdır.

– Necə yəni pambıq? – Bala kirpi soruşdu.

– Pambıq bilmirsən nədir? Pambıq kimi, yəni yüngül, ağ, toppuş... Və səssizlik. Elə bil yorğanın altındasan.

– Aha... Sonra? – Bala kirpi dedi.

– Elə bu vaxt...

– Nə?

– Elə bu vaxt... Təsəvvür edirsiniz? Taladakı köhnə kötüyün altından...

– Təpənin dalındakı talada?

– Yox, çayın yanındakı. Taladakı köhnə kötüyün altından çıxdı...

– Nə? Kim? – Ayı balası həyəcanlandı.

– Sən, – Dovşan dedi. – Ayı balası!

– Mən orda, kötüyün altında nə edirdim?

– Yaxşısı budur, soruş görüm, çıxandan sonra nə etdin?

– Nə etdim?

– Sən çıxdın və sakit səslə dedin: “Kədərlənmə, Dovşan, biz hamımız təkik”. Mənə yaxınlaşdın, alnını alnıma vurdun... O qədər sevindim ki, ağladım.

– Bəs mən? – Ayı balası soruşdu.

– Sən də, – Dovşan dedi. – Dayanmışıq, ağlayırıq.

– Bəs mən? – Bala kirpi soruşdu.

– Sən orda yox idin. – Dovşan dedi. – Mən və Ayı balası. Başqa heç kim yox idi. Təsəvvür edirsən? – Dovşan Ayı balasına baxdı. – Boş meşə, pambıq kimi səma, səssizlik və biz dayanıb ağlayırıq.

– Yox, belə heç vaxt olmur. – Bala kirpi dedi. – Mən mütləq gəlməli idim.

– Bu axı yuxuda olub.

– Olsun da. Nə fərqi var ki? Sadəcə, siz ağlamısınız və mənim kolun dalından necə çıxdığımı görməmisiniz. Çıxmışam, dayanıb baxıram. Görürəm ki, ağlayırsınız. Düşünürəm ki, ağlayırlarsa, nəsə bir səbəbi var. Səbəbsiz ağlamazlar. Və sizə mane olmaq istəməyib çıxıb gedirəm.

– Sən orada yox idin, – Dovşan güldü.

– Ordaydım.

– Yox idin axı.

– Deyirəm ki, ordaydım. – Bala kirpi dedi. – Sadəcə, ağlamağınıza mane olmaq istəmirdim.

– Yox, olub, olub, – Ayı balası dedi. – Mən onu gözümün ucu ilə görürdüm.

– Bəs mənə niyə demirdin? – Dovşan dedi.

– Gördüm ki, sən nə haldasan. Dedim qoy, əvvəlcə sakitləşdirim, sonra deyərəm. Həm də niyə deyim axı? Bilmirsən ki, Bala kirpi həmişə mənimlədir?

– Amma, məncə, biz tək idik. – Dovşan dedi.

– Sənə elə gəlib. – Bala kirpi etiraz etdi.

– Özündə olmamısan. – Ayı balası dedi.

– Əgər elədirsə, mənim əlimdə nə var idi? – Dovşan soruşur.

– Əlində nə isə götürmüşdün ki?

– Aha.

– Torba. – Bala kirpi dedi.

– İçində də yerkökülər. – Ayı balası dedi.

– Düzdür! – Dovşan dedi. – Siz bilirsiniz, mənim üçün kimsiniz? Siz mənim üçün Yer üzünün ən, ən, ən yaxşılarısınız!

**Tərcümə etdi Sevinc Nuruqızı**





# QAR UÇQUNLARI



2017-ci ildə Azərbaycanda "Gilavar" hava və ekstrim qrupunun üç alpinisti itgin düşdü. Onlar Tufandağ ərazisində qar uçqununa düşmüşdülər. Xınalıq ətrafı dağların güclü qar yığınları dağlara qalxmağa niyyətli olan alpinistlərimizi heç bir iz buraxmadan yox etmişdi. Belə olan halda, hər birimizdə "Qar uçqunu nədir və necə yaranır?" sualı yaranır. O zaman gəl, qar uçqunlarını səninlə birlikdə araşdıraq...

Qar uçqunları dağlıq ərazilərə xas olan çox təhlükəli təbiət hadisəsidir. Adından görünür ki, bu dəhşətli hadisədə baş rolu sənin sevimlin olan qar oynayır.

Bu, sürüşmə hadisəsidir. Üst-üstə qalaqlanmış qar və buz yığınları çat verir və üzüaşağı axmağa



başlayır. Axmanın sürəti zirvənin ucalığından, qar yığınının kütləsindən və ağırlığından birbaşa asılıdır. Orta hesabla quru qar uçqunu saniyədə 80-100, yaş qar uçqunu isə 20-30 metr sürətilə baş verir. Dağ zirvələrində qar gec əriyir. Və bu səbəbdən, mütəmadi yağan qar yığılıb qalır. Bəzən qar yığıntısı onlar və yüzlərlə ton ağırlığında olur.

Dağlıq ərazidə ilin bütün fəsillərində, hətta yayda da dağlarda qar olur. Qışda isə getdikcə ağırlaşan kütlə müvazinətini saxlamır və aşır.

Qar uçqunu təbii prosesdir. İnsan yaşamayan ərazilərdə qar uçqunları o qədər də təhlükəli olmur. Məhz bu səbəbdən, adətən insan məskənləri dağlardan bir qədər aralıda salınır. Amma dağlara maraq və ov dalınca gedən insanlar qar uçqunlarının günahsız qurbanlarına çevrilə bilərlər. Əsasən, zərərçəkənlər alpinistlər, xizəksürənlər, dağ idman növü ilə məşğul olan idmançılar olur. Dağ xizək yollarında təhlükə törədə biləcək qar yığınlarını süni şəkildə uçururlar ki, sonra təhlükə ilə üzləşməsinlər. Qar uçqununa bol yağıntı, havanın rütubətliyinin artması, yer titrəyişləri və nə qədər təəccüblü olsa da, güclü səs, tüfəngdən açılan atəş və s. səbəb ola bilər.

## QAR UÇQUNLARININ NÖVLƏRİ

Qar uçqunlarının 3 növü var:

1. Qarlı uçqun - onun müəyyən düşmə kanalı olmur. Çox zaman bir neçə yüz metr ölçüsü olan qarlı yamac qopub, aşağıya sürüşür.

2. Novlu qar uçqunları - meşəsiz oyuqlar, çökəkliklərlə mütləq bir məcra ilə hərəkət edir.

3. Atlanan qar uçqunları - qayaların, buzluqların çıxıntılarından sərbəst sürətdə dərənin dibinə düşür.

Şimali Osetiya MR ərazisində 2002-ci ilin sentyabr ayında qar uçqunu faciə ilə nəticələnərək bir neçə kiçik kənd və burada kinofilm çəkən adamların bir qrupu qar-buz uçqunu altında qalmışdı.15 nəfər həlak olmuş və ya itkin düşmüşdü. Azərbaycanda qar uçqunları, adətən, Böyük və Kiçik Qafqaz dağları yamaclarında və dərələrində baş verir.

## QAR UÇQUNLARI İLƏ MÜBARİZƏ

Qar uçqunları ilə mübarizə məqsədilə qar uçqunlarına qarşı xüsusi xidmət təşkil olunmuşdur. Dik yamaclarda böyük qar kütləsinin toplanmasını gözləmədən artilleriya qurğularının köməyi ilə dağıdıcılıq yaratmayan kiçik qar uçqunları törədilir. Yazda qar uçqunları daha çox baş verdiyi dövrdə bir sıra dağ yollarında hərəkət qadağan olunur.

2003-cü il sentyabrın 2-də Qax rayonunda Kürmükçayın sol qolu Hamaçayın orta axarında, kükürdlü isti su çıxan, insanların müalicə üçün gəldiyi «Hamam» deyilən yerə 20-30 m qalmış hələ yaz ayında düşən və sentyabra qədər əriməyən qar uçqunu mövcud idi. Qar uçqunu dar dərədə yolu kəsdiyindən yerli sakinlər qarı deşərək tuneli xatırladan oyuq açmışdılar.



# Buz viktorinası

Ən soyuq okean hansıdır?

Yerin geoloji tarixinin ən soyuq dövrü hansıdır?

1242-ci il aprelin 5-də Aleksandr Nevskinin başçılığı ilə rus qoşunları ilə alman xaçpərəstləri arasında baş tutan döyüşün adı nədir?

Donan su hövzələrindəki buzda qalan gəmiləri xilas edən gəminin adı nədir?

Çaylarda yazda baş verən gözəl və dəhşətli təbiət hadisəsi?

Körpülərin dayağında buz axıntısından qorunmaq üçün qurğu?

Qəzəbli və kinli baxış?

Buz dağı?

Laqeyd adamın baş verənlərə reaksiyası?

Hansı nağıl qəhrəmanı olan canlı buz evdə yaşayırdı və həmin buz ev yaz gələndə ərimişdi?

Ənvər Məmmədxanlının öz ürəyinin istisi ilə balasını soyuqdan xilas edən ana haqqındakı hekayəsi necə adlanır?

Göydən buz dənələrinin yağması ilə nəticələnən təbiət hadisəsi?

Su sıfır dərəcə Selsidən aşağı temperaturda nəyə çevrilir?

Aysberqlərin hərəkətinə nəzarət edən polis necə adlanır?

Aysberqlərin hərəkət istiqamətini nə ilə dəyişdirirlər?

Şimal buzlu okeanı*, buz dövrü*, buz savaşı*, buzqıran gəmi*, buz axıntısı*
Buzqıran*, buz kimi baxış*, buz kimi laqeyd*, İqlu*, Tülkü*, buz heykəl*, Dolu*
Aysberq*, buz*, buz polisi*, Aysberq qoşun







Abasova Aylin Landau School Local Curriculum 7N



Abdullayeva Fatimə Landau School Local Curriculum 7N



Elyazova Mədinə Landau School Local Curriculum 7N



Şamiyeva Nəzrin Landau School Local Curriculum 7N



Pirişov Murad Respublika İncəsənət Gimnaziyası 1c



Nəcəfzadə Zeynəb ADA məktəbi X sinif

Məmmədova Nəzrin



Avropa Liseyi I sinif

Bəkir Ruqiyə



Bakı Avropa Liseyi II sinif

Ağayeva Firəngiz



211saylı məktəb 3 E

# This page is made for our little READERS

## Christmas Crossword



**ACROSS**
1.Pumpkin or mincemeat
3.Santa's ride
6.Celebration
8.Newborn
9.Northpole crew
13.Word of praise
14.Words on a Christmas card
17.It's opened on Christmas

**DOWN**
1.Alternative word to 17 across
2.Christmas drink
4.Christmas dinner centerpiese
5.Dec.holiday
7.Christmas warmer
8."Jingle _______
10.Christmas tree
11.O.Henry's "The Gift of the___"
12.What carolers do
15.French Christmas
16.Snow glider

## CHRISTMAS CROSSWORD PUZZLE

Use the clues to complete the crossword puzzle



**ACROSS**
1. One of Santa's Reindeer
3. Santa's Helpers
5. Desember 25th is_________
7. Christmas Drink
10. The name of a popular snowman

**DOWN**
2. Christmas Month
4. He hates Christmas!
6. You hang them by the chimney
8. On Christmas morning we unwrap our____
9. _____to the world!

## CHRISTMAS SCRAMBLER

Unscramble thewords below

| | |
|---|---|
| 1. ahrtew _______ | 11. tipisr ______ |
| 2. tnigergse _______ | 12. tiotsemle ______ |
| 3. rmyer _______ | 13. rete ______ |
| 4. otfyrs _______ | 14. hlaodyi ______ |
| 5. tayrp _______ | 15. eeirerdn ______ |
| 6. ttosneaiip_______ | 16. cyinehm ______ |
| 7. eretalcbe _______ | 17. elsve ______ |
| 8. soanse _______ | 18. aasnt ______ |
| 9. maiyfl _______ | 19. cngtkoiss ______ |
| 10. ljloy _______ | 20. sdel ______ |









## Новогодний кроссворд

1. Это дерево, символ праздника, некоторое время было под запретом
2. Сезон, когда мы встречаем Новый год
3. Огоньков хоровод мы зажжём на Новый год
4. Помощник Санта Клауса, который перемещает воз подарков
5. Его загадывают люди под Новый год
6. Красочные огни в тёмном небе
7. Обнаруживается утром под ёлкой или под подушкой
8. Фрукт — символ Нового года
10. Пишет каждый ребёнок Деду Морозу
11. Мультфильм «...-почтовик»

Если вы правильно ответили на все вопросы, то по вертикали найдёте ответ на вопрос 9: «Как называется праздник, на который нельзя явиться без костюма»



## ВЫРЕЖИ ВАРЕЖКИ И СЛОЖИ ИХ ПО ПАРАМ



Q: What does Santa use to measure?
A: Santameters!

Q: What does the gingerbread man put on his bed?
A: Cookie sheets!

Q: Where does a snowman keep his money?
A: In a snowbank!

Q: What happens if you eat Christmas decorations?
A: You get tinselitis!

Q: What does an elf study in school?
A: The elfabet

Q: What goes oh, oh, oh?
A: Santa Claus walking backward!

Q: Where do snowmen go dancing?
A: A snowball!

Q: What do you get if you cross an apple with a Christmas Tree?
A: A pineapple!

Q: What do road crews use at the North Pole?
A: Snow cones!

Q: What do you call Santa when he stops moving?
A: Santa Pause

Q: What should you give your parents at Christmas?
A: A list of what you want.

Q: What kind of bug hates Christmas?
A: A humbug!



# Brumbol



Brumbol – qış komanda idmanı növüdür. Şaybalı xokkey və florbol (döşəmə üstündə konkisiz xokkey) idman növlərinin birləşməsindən yaranıb, desək, səhv etmərik. Brumbol buz üzərində xokkey kimi oynanılır. Amma xokkeydən fərqli olaraq, brumbolda şayba deyil, top qovulur. Xokkey çubuğu əvəzinə - süpürgə, konki əvəzinə - rezin altlıqlı çəkmə.



## *Brumbol oyununun qaydaları*

Oyunda iki komanda iştirak edir. Hər komanda iki müdafiəçidən, mərkəz hücumçusundan, iki kənar hücumçu və qapıçıdan ibarət olur. Topun oyuna daxil edilməsi xokkeydə şaybanın daxil edilməsinin eynidir. Oyun iki-üç mərhələdən ibarətdir. Hər mərhələ 20 dəqiqə davam edir. Əsas məqsəd – topu rəqib komandanın qapısından keçirməkdir. Əgər oyun heç-heçə ilə qutarırsa, əlavə vaxt təyin edilir. Bu vaxt ərzində artıq qapıçısız oynayırlar. Əlavə vaxtda ən çox qol vuran komanda qalib hesab edilir. Yəqin dedin ki, nə var qapıçısız qapıya top vurmağa?! Yox... Elə olur ki, vura bilmirlər, bu zaman ikinci əlavə vaxt – bullit təyin edilir...



Oyun zamanı buz üzərində iki hakim çalışır. Qayda pozulanda hakim qırmızı sarılı əlini yuxarı qaldırır. Brumbol da xokkey kimi bir qədər aqressiv idman növüdür.



## *Brumbolun vətəni*

Brumbolun vətəni Kanadadır. Bu idman növü Kanadadan qonşu Amerikaya, oradan isə bütün dünyaya yayılıb. İndi Yaponiya, İsveç, Avstraliya, Almaniya kimi ölkələrdə bu oyun oynanılır. Brumbol Federasiyası isə bu oyunun vətənində - Kanadadadır.







# Duzlu xəmirdən fiqurlar – yeni il oyuncaqları

**Yaradıcılıq emalatxanası**

**Duzlu xəmir yaradıcılıq üçün asan əldə edilən və rahat şəkilləndirilən materialdır. Onu qarlı qış günündə evdən bayıra çıxmadan, özün yoğurub, özün yapa bilərsən. Əsas odur ki, həvəsin olsun.**



*Duzlu xəmir hazırlmaq üçün sənə lazım olacaq:*

*Un – 2 stəkan   Duz – 1 stəkan   Su – 250 ml*

*Adi buğda unu, adi mətbəx duzu və içməli su. Və üstəgəl sənin təxəyyülün... Unu duz və su ilə qarışdır. Adi xəmir yoğurduğun kimi yoğur. Əgər un səpələnərsə, azacıq su əlavə et. Plastilin kimi bir kütləyə çevriləndə dayan. Yapma materialı hazırdır. İndi sənə onu yayıb kəsmək üçün qəlib məsləhət görüm. Peçenye üçün qəlibləriniz varsa, istifadə edə bilərsən. Plastilin qəliblərindən də. Yəqin artıq məndən də yaxşı bilirsən nədən istifadə edəcəyini. Yay, kəs və qoy qurusun. Sonra boya. Göyqurşağının yeddi rəngi və onlarla çaları ixtiyarındadır. Sənə uğurlar!*







